# Fəxr et, qürur duy, AZƏRBAYCAN!







# Sürət, həyəcan və möhtəşəm Azərbaycan Qran-prisi

## Ölkəmiz dünyanın birnömrəli avtomobil yarışında növbəti dəfə nümunə göstərdi

**Aprelin 28-30-da Bakı planetin bir nömrəli avtomobil yarışına 7-ci dəfə evsahibliyi etdi. "Formula-1" Dünya Çempionatının 4-cü mərhələsi olan Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı.**





Gərgin keçən mübarizə sürət həvəskarlarının böyük marağına səbəb oldu. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı müxtəlif ölkələrdən yüzlərlə azarkeş paytaxtımızda tribunalardan izlədi.

Pilotlar ümumu məsafəsi 306 kilometr və 20 çətin döngəsi olan trekdə 51 dövrə vurdular. Təhlükəsizliyin yüksək səviyyədə təmin olunduğu, müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edirdi. 30 mindən çox tamaşaçının yarışları yerində izlənməsi üçün hər cür şərait yaradılmışdı.



Maraqlı və gərgin keçən yarışın yekununda "Red Bull Racing" komandasının pilotu Serxio Peres Bakı Şəhər Halqasında "Formula-1" üzrə dünya çempionatının dördüncü mərhələsi - Azərbaycan Qran-prisinin qalibi olub. Onun komanda yoldaşı Maks Ferstappen ikinci, "Ferrari"nin sürücüsü Şarl Lakler isə üçüncü pillədə yer alıblar. Qeyd edək ki, S.Peres 2021-ci ildə də Azərbaycan Qran-prisinin qalibi olub.

Xatırladaq ki, Azərbaycan Qran-prisinin ilk günündə "Formula-1" pilotları sərbəst yürüş və sıralanma yürüşlərində mübarizə aparıblar. Hər iki yürüşdə pilotlar 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Sərbəst yürüşdə "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen bütün rəqiblərini qabaqlayıb. "Ferrari"nin pilotu Şarl Lekler və "Red Bull Racing"in digər sürücüsü Serxio Peres ilk üçlüyü tamamlayıblar. Sıralanma turunu isə "Ferrari"nin pilotu Şarl Lekler qalib kimi başa vurub. "Red Bull Racing"in üzvləri Maks Ferstappen ikinci, Serxio Peres isə üçüncü yerdə qərarlaşıblar. Bu qələbə sayəsində monakolu pilot cari mövsüm ilk, Bakı Şəhər Halqasında ardıcıl üçüncü poul qazanıb. Həmçinin bu, onun karyerasında qazandığı 19-cu nailiyyətdir. Aprelin 29-da isə sprint üçün təsnifat və sprint yarışları təşkil olunub. Təsnifat yarışında "Ferrari" komandasının pilotu Şarl Lekler birinci olub. "Red Bull Racing"in pilotları Serxio Peres və Maks Ferstappen ilk üçlüyü tamamlayıblar. Sprint yarışı isə S.Peresin qələbəsi ilə yekunlaşıb. Ş.Lekler ikinci, M.Ferstappen isə üçüncü olublar.

"F-1" üzrə dünya çempionatının cari mövsümü 24 mərhələdən ibarətdir. Qran-prinin dördüncü mərhələsinə Bakı evsahibliyi edib. Altı kilometr uzunluğu olan və saat əqrəbi istiqamətinin əksinə hərəkət edən trek məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır.

Bununla da Azərbaycan Qran-prisi göstərdi ki, Bakı "Formula-1" üçün unikal məkandır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.-2 may.- S.11.